**ABŞ Əmək Nazirliyi**

**2022-ci İldə Uşaq Əməyinin Ən Pis Formaları Barəsində Məlumat**

## Azərbaycan

Azərbaycan 2022-ci ildə uşaq əməyinin ən pis formalarını aradan götürmək yolundakı səylərdə minimal inkişaf qeyd edib. Daxili İşlər Nazirliyi 25 şəhərdən 700-dən çox polis zabiti və rayon polis dəstəsinə zorakı əmək və insan alverçiliyi sahələrində təlim keçib. Buna əlavə, dövlət inklusiv sinifləri olan mövcud 8 məktəbə əlavə olaraq 12 məktəb açaraq əlil uşaqların normal təhsil həyatına inteqrasiyası üçün göstərdiyi səylərə davam edib. Uşaq əməyi problemi ilə bağlı yeni təşəbbüslərə baxmayaraq, Azərbaycan uşaq əməyinin ən pis formalarını aradan götürməkdə inkişaf qeyd edilməsini ləngidən qanunu ləğv etmədiyinə görə sadəcə minimal inkişaf qeyd etmiş hesab olunur. Bu qanun iş yerlərinin hamısında aparılan əmək təftişlərinə bir moratorium olmağa davam edir. Müfəttişlərin şikayətləri masalarında nəzərdən keçirə bilmələrinə baxmayaraq, proaktiv və iş yerində təftiş mexanizmlərinin olmaması iş yerlərində uşaq əməyi qanunlarının potensial pozulmasının aşkar edilməməsinə yol aça bilər. Azərbaycanda uşaqlar zorakı dilənçilik də daxil olmaqla uşaq əməyinin ən pis formalarında işləyirlər. Buna əlavə, hazırda neçə uşağın əməyindən istifadə edildiyinə dair məhdud məlumat vardır. Bəzi hallarda polis küçələrdə dilənçiliyə ya da işləməyə məcbur buraxılan uşaqların vəziyyətinə ailə məsələsi kimi yanaşır ki bu da uşaq əməyindən istifadə halları üçün lazımı kimi cinayət istintaqı və təqibə müraciet edilməməsinə yol açır.

**Uşaq Əməyinin Aradan Götürülməsi Üçün Hökumətə Məsləhət Bilinən Fəaliyyətlər**

| Sahə | Məsləhət Bilinən Fəaliyyətlər | Məsləhət Bilinən İl(lər) |
|---|---|---|
| Hüquqi İş Çərçivəsi | Uşaqlardan fahişə kimi istifadə edilməsini və uşaqların pornoqrafiya istehsalatı və tamaşaları üçün istifadə olunmasını, cəlb edilmələrini və bu işlər üçün verilmələrini kriminal cinayət kimi qadağan edin. | 2019 – 2022 |
| Tətbiqat | Şikayətlərə cavab vermək də daxil olmaqla müntəzəm, hədəfli və qabaqca xəbər verilməyən əmək yoxlamalarına yenidən başlayaraq uşaq əməyi qanunlarının tətbiq edilməsindən əmin olun. | 2016 – 2022 |
| | Əmək müfəttişlərinin sayını 182-dən 265-ə artıraraq təqribən 5.3 milyonluq əmək qüvvəsinin lazımı kimi əhatə edilməsinə əmin olun. | 2016 – 2022 |
| | Fond səviyyəsi daxil olmaqla əmək müfəttişliyinin əməliyyatları haqqında məlumatı nəşr edin. | 2015 – 2022 |
| | Hüquq mühafizə orqanlarının uşaq əməyi təmin etdiyini müəyyənləşdirdiyi uşaqları ictimai xidmət mərkəzlərinə ya da | 2018 – 2022 |

| Uşaq Əməyinin Aradan Götürülməsi Üçün Hökumətə Məsləhət Bilinən Fəaliyyətlər | | |
|---|---|---|
| **Sahə** | **Məsləhət Bilinən Fəaliyyətlər** | **Məsləhət Bilinən İl(lər)** |
| | digər münasib xidmət yerlərinə yollamasını, beləliklə onların təkrar uşaq əməyinə qayıtmamalarının təmin olunmasını təminat altına alın. | |
| | Hüquq mühafizə işçilərinin Bakı xaricində uşaq əməyi ilə bağlı istintaqlarını artırın. | 2018 – 2022 |
| | QHT-lər tərəfindən göndərilənlər daxil olmaqla dilənçilik eləyən uşaqları zorakı əmək göstəriciləri cəhətdən yoxlayın və uyğun hallarda, uşaqları dilənməyə məcbur buraxmağı kriminal cinayət kimi istintaq və təqib edin. | 2018 – 2022 |
| Koordinasiya | Əmək Nazirliyi, Əhalinin Sosial Müdafiəsi və Daxili İşlər Nazirliyi arasinda koordinasiyanı və potensial uşaq əməyi cinayətləri ilə əlaqədar yönləndirmə fəaliyyətini artırın. | 2018 – 2022 |
| | Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi ilə Yeniyetmə Məsələləri Komisiyalar və Azlıqların Hüquqlarının Müdafiəsi, müxtəlif agentliklər və dövlət idarələri daxil olmaqla, tənzimləyici və əlaqələndirici orqanların hamısının hədəf seçdikləri vəzifələrini yerinə yetirə bilmələri üçün lazımı imkanlara malik olmalarından əmin olun. | 2016 – 2022 |
| Hökumət Siyasəti | Kəndtəsərrüfatındakı təhlükəli işlər kimi uşaq əməyinin ən pis formalarının hamısını əhatə edən bir siyasət qəbul edin. | 2016 – 2022 |
| | Kəndtəsərrüfatında uşaq əməyinə mane olunması məqsədilə, öncəlikli məhsullara istehsal hədəfi qoyan siyasəti dəyişin. | 2019 – 2022 |
| Sosial Proqramlar | Siyasət və proqramlar üçün məlumat təmin etmək məqsədilə uşaq əməyinin həcmi və təbiəti barədə məlumat yığın və nəşr edin. | 2013 – 2022 |
| | Təcrid edilmiş icmaların uşaqları ilə əlil uşaqların təhsilə bərabər hüquqda yiyələnmələrini təmin edin. | 2016 – 2022 |
| | Sənədsiz uşaqların təhsilə yiyələnə bilmələrini təmin edin. | 2019 – 2022 |
| | Raport müddətində uşaq əməyi ilə əlaqədar sosial proqramları tətbiq etmək məqsədilə göstərilən fəaliyyətlərlə bağlı məlumatı nəşr edin. | 2020 – 2022 |
| | Hükumətin, insan alverçiliyi qurbanlarına lazımı xidmətləri təmin etmələri üçün QHT-lərin idarəsindəki sığınacaqlara yetərli və davamlı fond verməsini təminat altına alın. | 2015 – 2022 |